# Azərbaycan ilə Yunanıstan arasında idman sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Yunanıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında idman sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb. Anlaşma Memorandumunun imzalanması Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralosun dəvəti ilə bu ölkədə səfərdə olan Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimovun Mədəniyyət və İdman Nazirliyində keçirdiyi görüş çərçivəsində baş tutub.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə iki ölkə arasında idman sahəsində əməkdaşlığın inkişaf etdirilməsi perspektivləri müzakirə olunub. Anlaşma Memorandumu da məhz idman sahəsində



müqavilə-hüquq bazasını gücləndirmək məqsədilə imzalanıb. Memorandumda iki ölkənin idman, Olimpiya müəssisə və təşkilatları arasında mübadilələrin daha da inkişaf etdirilməsi nəzərdə tutulub. Sənəddə idmançılarımızın peşəkarlıqlarının artırılmasına dəstək olmaq üçün dünya və Avropa çempionatlarında, beynəlxalq idman tədbirlərində milli komandaların optimal iştirakının həyata keçirilməsində zəngin təcrübəyə malik yunan idmançıları ilə ümumi təlimlərin təşkili məsələləri də əksini tapıb.

Azad Rəhimov, həmçinin ümummilli lider Heydər Əliyevə həsr olunan və yunan dilində çapdan çıxan kitabın təqdimatı ilə əlaqədar Azərbaycanın Yunanıstandakı səfirliyi tərəfindən təşkil edilən tədbirə də qatılıb.

Nazir Braziliyada keçiriləcək XXXI Yay Olimpiya və XIV Paralimpiya Oyunlarının məşəlinin Yunanıstanda alovlandırılması mərasimində iştirak edəcək.

***AZƏRTAC***